Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@link.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

19-21 iyun 2006-cı ildə Azərbaycan Respublikasının Bakı şəhərində İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin 33-cü İclası keçirilmişdir.

Üzv dövlətlərlə yanaşı İclasda BMT, Avropa Şurası, ATƏT və Ərəb Dövlətləri Liqası da daxil olmaqla beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İclas iştirakçıları qarşısında çıxış etmişdir. Prezident çıxışında Azərbaycanın daxili və xarici siyasəti, iqtisadi inkişafı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq siyasi və iqtisadi prosseslər, İKT üzv dövlətləri arasında əməkdaşlığın genişləndirilməsi yolları, terrorçuluğa və seperatçılığa qarşı mübarizə və digər vacib məsələlərə toxunmuşdur.

İclasın açılışında həmçinin İKT-nin Baş Katibi cənab Ekmelleddin İhsanoğlu, Azərbaycan, Yəmən və Malayziyanın Xarici İşlər Nazirləri, Afrika, Asiya və Ərəb Dövlətləri Qruplarının və digər dövlətlərin nümayəndələri çıxış etmişlər.

İclasda üzv dövlətlərlə beynəlxalq birlik arasında əməkdaşlıq, həllini tapmamış məsələlər barədə Yekun Kommunike, Bakı Bəyannaməsi və digər sənədlər qəbul olunmuşdur.

İştirakçılar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 1996-cı il Lissabon Sammitində ATƏT-in Fəaliyyətdə olan Sədrinin Bəyannaməsində əksinin tapmış üç prinsip, yəni Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağ regionuna yüksək özünü idarəetmə statusunun verilməsi və region və onun əhalisinin təhlükəsizliyinə təminat verilməsi əsasında sülh yolu ilə həllini yenidən dəstəkləmiş, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı işğalını, işğal altında olan Azərbaycan ərazilərində tarixi və mədəni abidələrin məhv edilməsinini hiddətlə pisləmiş, üzv dövlətləri köçkün və qaçqın düşmüş azərbaycanlıların acınacaqlı vəziyyətini yüngülləşdirmək məqsədilə zəruri yardımın Azərbaycan Hökumətinə verilməsinə çağırmışlar.

İndoneziya Respublikasının Xarici İşlər Naziri cənab H. Virayuda İclasda iştirak etmiş və Azərbaycanlı həmkarı cənab E. Məmmədyarovla ikitərəfli danışıqlar aparmışdır.

27 iyun 2006-cı il